# Azərbaycanda Beynəlxalq Gənclər Düşərgəsi açıldı

Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası (FAİREX) və Beynəlxalq Dağçılıq Federasiyasının (UİAA) təşkilatçılığı ilə Qusarın Ləzə kəndində təşkil olunan Beynəlxalq Gənclər Düşərgəsinin açılışı olub.

Düşərgədə idman qayayadırmanması sahəsində təcrübəsi olan 50 xarici və yerli idmançı təlim keçir. Düşərgə iştirakçıları beynəlxalq səviyyəli təlimçilər tərəfindən idman dırmanması marşrutlarının təşkili, habelə dağ turizmi sahəsində vacib olan peşəkar bələdçilik üçün zəruri bilik və bacarıqlara yiyələnirlər. Onlar Azərbaycanın təbii gözəlliyi, ölkənin dağçılıq turizminin inkişaf perspektivləri və mövcud potensialı ilə yerində tanış olmaq imkanı da qazanırlar.



Açılış mərasimində Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının prezidenti Firdovsi Əliyev, Beynəlxalq Dağçılıq Federasiyasının vitse-prezidenti Piter Farkas, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Fərid Qasımov iştirak ediblər.

Türkiyə, Gürcüstan, İran, Türkmənistan və Azərbaycandan olan düşərgə iştirakçıları üçün təlimlər Türk Dağçılıq Federasiyasının beynəlxalq standartlı təlimçiləri tərəfindən keçirilir. Düşərgəyə qatılan gənclər isə burada yaradılmış şəraitdən, eləcə də beynəlxalq səviyyəli məşqçilərin keçirdiyi təlimlərdən razılıq ifadə ediblər.

Beynəlxalq Dağçılıq Federasiyasının vitse-prezidenti P.Farkas açılış mərasimindəki çıxışında bildirib ki, beynəlxalq tədbirin Azərbaycanda keçirilməsi təsadüfi deyil. Çünki FAİREX tərəfindən Azərbaycanda ekstremal idman növlərinin inkişafı istiqamətində xeyli işlər görülüb.

Qeyd edək ki, düşərgədə təlimlər avqustun 23-dək davam edəcək və sonda iştirakçılara sertifikatlar veriləcək.

Məlumatı Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyasının mətbuat xidmətindən almışıq.

***"Azərbaycan"***